# Milli Məclisin Sədri Sahibə Qafarova Mövlud Çavuşoğluya başsağlığı məktubu ünvanlayıb

Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin üzvü, TBMM-in NATO PA-dakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğluya atası Osman Çavuşoğlunun vəfatı ilə əlaqədar başsağlığı məktubu ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktubda Milli Məclisin Sədri bu ağır itki ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin adından və şəxsən öz adından başsağlığı verib, Mövlud Çavuşoğluya, mərhumun ailəsinə və yaxınlarına səbir və dözüm diləyib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 aprel (№77).- S.3.